# QARABAĞ AZƏRBAYCANDIR!



*Azərbaycanlı köçkünlər*

**Torpaqlarımızın Ermənistan tərəfindən işğal edilməsi.** 1992–1993-cu illərdə Ermənistan Respublikasının silahlı qüvvələri Azərbaycan ərazisinin 20%-ni işğal etdi. Müstəqilliyini yeni bərpa etmiş Azərbaycan dövləti o zaman indiki kimi güclü deyildi. Bundan istifadə edən işğalçılar ərazilərimizə soxulub torpaqlarımızı tutdular. Bir milyona yaxın azərbaycanlı doğma yurd-yuvasından qovularaq qaçqına, köçkünə çevrildi. Birləşmiş Millətlər Təşkilatı Ermənistanı işğal etdiyi Azərbaycan torpaqlarından çıxmağa çağıran qətnamələr qəbul etdi. Ermənistan bu çağırışa əməl etmədi.

**Azərbaycan xalqı torpaqlarının işğalı ilə heç vaxt barışmayacaq!** Müharibə döyüş deməkdir. Döyüş isə qansız, qurbansız olmur. Xalqımızı bu itkilərdən qorumaqdan ötrü Azərbaycanın dövlət başçıları işğal altında olan torpaqlarımızı dinc yolla qaytarmaq üçün danışıqlara başladılar. Danışıqlar davam etdiyi müddətdə Azərbaycan dövləti ən müasir silahlarla təchiz olunmuş ordu quruculuğunu davam etdirdi.



*Şanlı Azərbaycan Ordusu*

Heydər Əliyevin siyasətini davam etdirən Prezident İlham Əliyev də iştirak etdiyi bütün beynəlxalq görüşlərdə "Danışıqlar yolu ilə mümkün olmasa, biz hərbi yolla torpaqlarımızı geri qaytaracağıq, Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır!" deyirdi.

**Vətən dərdinə son qoyan müharibə.** Danışıqlar 30 ilə qədər uzandı. Ermənistan öz ordusunu torpaqlarımızdan çıxarmadı. Bizim zəif olduğumuzu düşünən Ermənistan Azərbaycanın yeni ərazilərini tutmağa cəhd etdi. Azərbaycan xalqının səbir kasası dolmuşdu. Ali Baş Komandan İlham Əliyev Azərbay-

canın Silahlı Qüvvələrinə düşmənin növbəti hücumunu dəf etmək etmək üçün “İrəli!” əmrini verdi. 2020-ci ilin 27 sentyabrında Vətən müharibəsi başladı.



*Prezident İlham Əliyev: “Qarabağ – Azərbaycandır!*

Ermənistan bu dəfə də müharibə qanunlarına xəyanət edərək dinc əhaliyə qarşı terror aktı törətdi. Ermənistandan Azərbaycanın Gəncə və Bərdə şəhərlərinə raket zərbələri endirildi. Atılan raketlər onlarla dinc sakinin həyatına son qoydu. Azərbaycan Prezidenti İlham Əliyev isə çıxışlarında dəfələrlə dedi ki, biz dinc əhali ilə vuruşmuruq, biz günahsız qurbanların intiqamını döyüş meydanında alacağıq!

Vətən müharibəsi Azərbaycan xalqının qəhrəmanlığını bütün dünyaya göstərdi. Qəhrəman əsgərlərimiz işğal altında olan ərazilərimizin bir hissəsini döyüşərək geri qaytardılar.

Qarabağın tacı Şuşa şəhərinin düşməndən geri alınması ən şanlı səhifələrdən biri kimi Azərbaycanın hərb tarixinə yazıldı. Ermənistan təslim olduğunu bildirib Azərbaycandan müharibəni dayandırmağı xahiş etdi. Qısa zaman ərzində Ermənistan işğal etdiyi digər rayonları da müharibəsiz boşaltdı, çünki artıq onun başqa yolu yox idi.

Müharibə günlərində dünya birliyi Azərbaycan xalqının iradəsinin, ordumuzun sarsılmaz qüdrətinin, dövlət başçımızın müdrikliyinin və uzaqgörənliyinin şahidi oldu. Biz həm döyuş, həm də siyasət meydanında sübut etdik ki, Qarabağ Azərbaycan torpağıdır. Azərbaycanın övladları bu torpaq uğrunda hər bir çətinliyə sinə gərməyə hazırdır.

Beləliklə, 2020-ci ilin payızında Azərbaycan tarixi ədaləti bərpa edib uzun illərdən bəri işğal altında olan torpaqlarını geri qaytardı.

***Sual və tapşırıq***

*1. Ermənistan Azərbaycanın hansı rayonlarını işğal etmişdi?*

*2. Azərbaycanın dövlət başçıları nə üçün münaqişəni danışıqlar yolu ilə həll etməyə çalışırdılar?*

*3. Müharibənin başlanmasına nə səbəb oldu?*

*4.* ***Esse yazın:*** *“Şuşasız bizim işimiz yarımçıq qalar!”Ali Baş Komandan İlham Əliyev*

Hazırladı: ***Gülər Mehdiyeva***